MİLLİ BESTSELLER

**Sabir ŞAHTAXTI**

# MAFİYA ŞAHİD SAXLAMIR

## “Bıçaq”ın bıçağı...

/ detektiv /

**I KİTAB**

**III nəşr**

qanun nəşriyyatı

Mürəkkəb və ziddiyyətli hadisələri... Cəmiyyətin dərin təzadları... İnsan münasibətlərinin mürəkkəbliyi... Müxtəlif xislətlər və xarakterlər... Bütün bunlar əsərin kəskin dramaturgiyasının əsasını təşkil edir.

Oxucu romanda cəmiyyətin eybəcərliklərini görür, cinayətkar aləmdə əriyib-itən insan taleləri ilə tanış olur.

Romanda çox maraqlı obrazlar silsiləsi yaradılıb. Onların hər birinin özünəməxsus xarakteri bədii ustalıqla açılır.

Beş kitabdan ibarət olan sisilənin ilk kitabı böyük maraqla qarşılanıb və detektiv janrda yazılan yerli bestsellərə çevrilib.

**“Allahın insanlara əta etdiyi mərhəmətə**
**(verdiyi nemətə, ruziyə) heç kəs mane ola bilməz.**
**Onun vermədiyi bir şeyi də Özündən başqa**
**heç kəs göndərə bilməz. O, yenilməz qüvvət,**
**hikmət sahibidir”**

*“QURANİ-KƏRİM”*
*Fatir surəsi, ayə 2*

## ÖN SÖZ

Dünya ədəbiyyatında kriminal-detektiv janrı ən az yayılmış, yüksək təfəkkür tərzi və dərin analitik düşüncə tələb edən ədəbi sənət növüdür. Buna görə də bu janr öz ətrafına çox az müəllif toplayıb.

Dünya ədəbiyyatı təcrübəsində kriminal-detektiv janr sahəsində ad qazanmış və geniş oxucu arasında tanınmış amerikalı Ayzaq Əzimov, rusiyalı Yuliyan Semyonov, türkiyəli Əziz Nesin və azərbaycanlı Çingiz Abdullayevin adları məlumdur.

Mafiya və detektivlərin ədəbi təhlili sahəsində Çingiz Abdullayev Azərbaycan ədəbiyyatında çox maraqlı ənənə yaratmışdır. Görünür, Çingiz Abdullayevin əsərlərini sevə-sevə oxuyan və onun yaradıcılıq ənənələrinə hörmətlə yanaşan Sabir Şahtaxtı da belə bir mürəkkəb yaradıcılıq yolunu seçmişdir.

Oxuculara təqdim olunan "Mafiya şahid saxlamır" salnaməsi Sabir Şahtaxtının detektiv janrı üzrə oxucularla ilk görüşüdür. Buna baxmayaraq, salnamədəki hadisələr real həyatdan götürüldüyündən, maraqlı hadisələr, obrazlar və kəskin süjetlərlə zəngin və oxunaqlıdır.

Salnamənin oxunaqlı olmasının əsas səbəblərindən biri də müəllifin vaxtilə hüquq-mühafizə orqanlarında topladığı məlumat və təcrübə ilə bağlıdır. Real həyatda baş verən hadisələrin yüksək peşəkarlıqla qələmə alınması göstərir ki, gənc olmasına baxmayaraq, müəllif kriminal aləmin yazılmamış qanunlarını bilir, buna görə də, sərt qanunların cəmiyyət üçün təhlükəli olan elementlərini oxucuya açıq çatdırır.

Etiraf edək ki, keçmiş sovetlər birliyində məhkum həyatına, kriminal hadisələrə müraciət edən müəlliflər çox az, tək-tük idi. Çünki sovetlər birliyində nəyin bahasına olursa-olsun, baş verən qeyri-əxlaqi, qeyri-insani cəhətləri ictimaiyyətdən gizlətmək siyasi dəb idi. Senzura çox sərt və güclü idi.

Sabir Şahtaxtının qələmə aldığı real hadisələri özündə əks etdirən "Mafiya şahid saxlamır" salnaməsində hadisələr, məhz sovetlər birliyinin mövcud olduğu dövrdə cərəyan edir. Bu salnamədə həmin dövrdəki məhkum həyatı, insan mənəviyyatını eybəcər hala salan digər məsələlər çılpaqlığı ilə əks olunur. Kriminal aləmin sərt qanunlarına tab gətirə bilməyən azadlıqdan məhrum edilmiş bəzi məhkumların başqaları tərəfindən sındırılması, onların kiçicik bir səhv üzündən ömrü boyu bədbəxt, gözükölgəli həyat sürmələri xüsusi məharətlə oxuculara çatdırılır, həbsxanalarda insanlara edilən mənəvi və fiziki təzyiqlər, işgəncələr cəsarətlə şərh edilir. Digər tərəfdən, sovetlər birliyi və ondan sonrakı dövrlərdə məhkum həyatı ilə bağlı bəzi romanlar oxuculara təqdim olunsa da, həmin romanlarda müəlliflərin hərbi qulluqçu və yaxub keç-

miş məhkum olmalarından asılı olaraq, süjetlərdə və obrazlarda qərəzçilik və qeyri-obyektivlik hiss edilir.

"Mafiya şahid saxlamır" isə Azərbaycan ədəbiyyatında demək olar ki, həm də obyektivliyi, qərəzçilikdən uzaq olması ilə seçilən məhkum həyatından bəhs edən ilk salnamədir.

"Mafiya şahid saxlamır" salnaməsim oxuyarkən, mənim gözlərim önündə məhkum həyatının yazılmamış qanunlarına söykənən ziddiyyətli məişətin bütün incə çalarlarını böyük professionallıqla bilən təcrübəli hüquqşünas və bu hadisələri ifadəli bədii təfəkkür süzgəcindən səlis dillə oxucuya çatdıran istedadlı ədibin obrazı canlanır.

Bu salnaməni oxuyarkən mən düşündüm ki, məhkum həyatı, yolunu azmış insanları doğru yola çağırır, onlara həyatın ən şirin neməti olan azadlığın nə demək olduğunu başa salır. Burada bu mürəkkəb həyatın hər iki istiqaməti var. Ən əsası odur ki, ağlını, təfəkkürünü, həyat eşqini, yaşamaq əzmini itirməyənlər məhkum həyatından dərs alır, törətdiyi cinayət əməlindən peşman olur, doğru yola qayıdırlar.

Bu salnamədə insanları sanki haqqa, ədalətə, düz yola səsləyən həyəcan təbilinin notları eşidilir. Digər tərəfdən, qanunların dönməzliyi, ədalətin mühakiməsinin obyektivliyi, cəzasızlıq şəraitinin qeyri-mümkünlüyü, yolunu azmaq məqamına gələn insanları ən azı tərəddüd etməyə sövq edən obrazlar var. "Mafiya şahid saxlamır" salnaməsinin əsl mahiyyəti ondadır ki, cinayətkar gec-tez cəza çəkəcəyini anlayır.

Müəllifin real həyata əsaslanan hadisələri ədəbi dildə təqdim etmək bacarığı, qaldırdığı problemlər ətrafında oxucunu düşünməyə sövqetmə qabiliyyəti bu salnaməni daha da oxunaqlı etmişdir. Hələlik "Mafiya şahid saxlamır" salnaməsinin birinci, "Bıçaq"ın bıçağı..." kitabı oxucularla görüşə gəlir. Beş kitabdan ibarət olacaq salnamənin növbəti hissələrinin oxuculara təqdim olunması Azərbaycan ədəbiyyatında kriminal-detektiv janrın inkişafına növbəti töhfə olacağına əminik.

**İmran CƏFƏRZADƏ,**
*professor, politoloq*

# HƏYAT SINAQ MEYDANIDIR

Müasir nəsrdə gənc ədəbi nəsil özünəməxsus mövqeyi ilə seçilir. Onların yaradıcılığında bir qayda olaraq, yaşadığımız dövrün həyat həqiqətləri, real faktlara əsaslanma meyli daha güclüdür. İnsanın psixoloji anlarını, onun iç dünyasını bədii dil vasitəsilə oxuculara çatdırma bacarığı yazıçıdan yüksək istedad və qabiliyyət tələb edir. Xoşbəxtlikdən müasir nəsrdə öz dəst-xətti ilə tanınan ədəbi gəncliyin yüksək erudisiya nümayiş etdirməsi oxucular tərəfindən rəğbətlə qarşılanır.

"Mafiya şahid saxlamır" romanı ilə oxucuların ilk dəfə görüşünə gələn Sabir Şahtaxtı da, məhz belə ədəbi gəncliyin nümayəndələrindən biridir. Yazıçı bu salnaməsini Azərbaycan nəsrində çox az-az təsadüf olunan kriminal janrda yazmışdır. Nəsrimizin müasir mərhələsində özünəməxsus yer tutan yazıçı Çingiz Abdullayev artıq bu janrda böyük nailiyyətlər əldə edərək, dünya ədəbi mühitində öz yaradıcılığı ilə layiqincə təmsil olunmuşdur.

Gənc yazıçı Sabir Şahtaxtının bu çətin janra müraciət etməkdə məqsədi yaxın keçmişdə birbaşa şahidi olduğu həyat həqiqətlərini bədii təfəkkür süzgəcindən keçirməklə, oxucuya çatdırmaqdır. Uzun müddət Sovet rejimi şəraitində insanların qapalı, gizli saxlanılan həbsxana həyatının daxili aləmi, orada baş verən hadisələri dərk edərək, təhliletmə bacarığı müəllifin ilk qələm təcrübəsi olmasına baxmayaraq, yüksək istedadından xəbər verir.

"Mafiya şahid saxlamır" romanında indiyə qədər geniş oxucu kütləsinə qaranlıq qalan, müəyyən bir "qrupun" tanıdığı kriminal aləmin son qərargahı olan həbsxana həyatını müəllif yeni keyfiyyətdə təqdim etməyə çalışır. Çünki Sovet həyat tərzi müəyyən səbəblər üzündən həbsxana həyatı yaşamağa məcbur edilən insanın qürur və heysiyyatını tapdalamaqla, onlara aşağı nəzərlə baxmaq aşılayırdı. Bununla da, onlar cəmiyyətə yad ünsürlər kimi təqdim edilməklə, xalqın nəzərindən salınırdı. Cəmiyyət arasında özünə yer, iş, peşə tapa bilməyən insanlar isə yeni-yeni cinayətlər törətmək məcburiyyətində qalmaqla, dəfələrlə həbsxana həyatı yaşamalı olurdular.

İnsana xas psixoloji anları dərk və təhliletmə qabiliyyətinə malik olan Sabir Şahtaxtı, romanda daha çox dustaq və onları "tərbiyələndirən" nəzarətçidən tutmuş, həbsxana rəisinə qədər rütbəli şəxslər arasında baş verən münasibətlərin birbaşa müşahidəsi nəticəsində ümumiləşdirilmiş tərzdə oxucuya çatdırmağa çalışır. Yazıçı romanın əvvəlindən başlayaraq, sonuna kimi 70–80-ci illərdə kriminal aləmdə nüfuz qazanmış insanların həyatlarının təsvirində ən xırda detaldan tutmuş, həbsxanaya düşmə səbəblərini, onlara qarşı hərbçilər tərəfindən qeyri-insani münasibətləri oxucuya çatdırmaqla, həyatın dibindəki yaşayış tərzini bədii ştrixlərlə, obrazlı şəkildə canlandırır. İnsan taleyinə biganə

qala bilməyən müəllifin həyat haqqında fikir və mülahizələri aydınlaşdıqca reallığa meyli daha çox hiss olunur. Belə ki, Sabir Şahtaxtının təqdimatında yazılmış "qanun"lardan başqa, yazılmamış "qanun"lar, yəni dustaqların özlərinin yaratdığı "qanun"ların daha sərt və dəmir intizama tabe edilməsi faktına rast gəlirik. Həmin qanunlar sərhəd tanımadan bir-birilə əlaqədar olan bütün həbsxanalarda "kişilik qanunu" kimi qeyd-şərtsiz qəbul edilməli, əks təqdirdə əməl etməyən həyatı ilə vidalaşmalıdır. Satqınlıq, dönüklük dustaqlar arasında ən böyük bağışlanılmaz hərəkət hesab edilir. Bu hərəkətin sahibi dustaqların "daxili qanun"larına görə, ancaq ölümə məhkumdur.

Müəllif romanında kriminal aləmdə nüfuz sahibi olan Lotu Şəriflərin həyatında kəskin-dramatik halları doğuran səbəbləri çılpaqlığı ilə göstərməyə çalışmış və müəyyən mənada buna nail olmuşdur. Böyük qardaşına olan sonsuz məhəbbəti, haqsız yerə qardaşının həbs edilməsi Şərifi cani edir. Lakin o, psixi halın müəyyən məqamında haqsızlığa dözməyərək, cinayət işlətməsinə baxmayaraq, ədalətsiz, qərəzli hökmü ilə iki gənc insanın həyatını söndürən, onların cəmiyyətdən təcrid olunmuş həbsxana həyatı yaşamağa məcbur edən müstəntiqdən qat-qat yüksəkdə durur. Müəllif bu cür qarşılaşdırmaları roman boyu çözələməklə, hadisələri inkişaf etdirir. Bəzən haqqını tələb edən Lotu Şərif, Həsən, Nazim və b. dustaqlarla, onlara ailələri tərəfindən gətirilən ərzaq və pulları min bir hiylə və iyrənc yollarla əllərindən alan Müşfiq Salmanov, Tariyel Nəzərov, Səməd Cəfərov və bu kimi "qanun keşikçiləri"nin qarşılaşdırılma səhnələri oxucuda ikrah hissi yaratmaya bilmir. Müəllifin geniş müşahidə qabiliyyəti və real faktları cəsarətlə təqdimetmə bacarığı oxucuda dustaqla "qanun keşikçiləri"nin yerlərinin səhv düşməsinə görə təəssüf hissi yaradır. Romandan da göründüyü kimi, bəzən cinayətlərin törənməsinin əsas səbəbkarları, məhz həmin bir qrup üzdəniraq "qanun keşikçiləri" olur.

"Mafiya şahid saxlamır" romanı bildiyimiz kimi, Sabir Şahtaxtının yaradıcılığının ilk addımı olmasına baxmayaraq, müasir nəsrimizə yeni ruh, yeni istiqamət gətirdi. İndiyə qədər dustaq həyatının həm bədii ədəbiyyatda, həm də həyatda mənfi, tüfeyli tip kimi obrazlaşdırılmasına rast gəlirik. Lakin Sabir Şahtaxtı öz romanı ilə bu fikirləri alt-üst etdi. Onun təqdimatında hamı kimi dünyaya gələn, hamı kimi yaşamaq hüququna malik olan, bəzən qərəzçiliklə ittiham olunan insanın ümumiləşdirilmiş obrazı ilə tanış oluruq. Romanın ən ümdə məziyyəti odur ki, xarakterlərin açılışında, dilin əsas rol oynadığını dərk edən müəllif birbaşa müşahidələri nəticəsində dustaqların özünəməxsus termin və jarqonlardan istifadə etməklə, hadisələrin daha real planda təsvirinə nail olmuşdur. Roman müəllifin ilk bədii qələm təcrübəsi olduğundan, yəqin ki, bəzi forma və üslub qüsurlarından xali deyil. Lakin bu romanın ilk addım kimi səviyyəsi onu deməyə əsas verir ki, Sabir Şahtaxtının qələm təcrübəsi artdıqca nəsrimizdə öz dəst-xətti ilə tanınan yazıçı kimi özünü təsdiq edəcəyi şübhə doğurmur.

**Nəzakət HÜSEYNOVA,**
*filologiya elmləri namizədi*

1988-ci ilin yağışlı günlərindən biri idi. Daxili qoşunlar hərbi hissəsinin kadrlar şöbəsinin rəisi, polkovnik İdris Paşayevin kabinetində 3 nəfər gənc əyləşmişdi. Polkovnik kabinetindəki gəncləri hərbi xidmətə götürmək üçün onlara son tapşırığını verdi. Nə qədər məsuliyyətli bir işə götürüldüklərini gənclərə başa salmağa başladı. Sonra gənclərin yaşayış yerlərini nəzərə alıb xidməti təyinat bölgüsü apardı. Praporşik Müşfiq Salmanov "N" saylı İslah-Əmək Müəssisəsinə (İƏM)[1] nəzarətçi təyin edildi.

Polkovnik Paşayev "N" saylı İslah-Əmək Müəssisəsinin keşikçi rota komandiri Stepan Semyonova telefon edib, rotaya göndərilən praporşik Salmanov barədə məlumat verdi. Bir saatdan sonra praporşik Müşfiq Salmanov "N" saylı keşikçi rota komandiri, mayor Semyonovun xidməti otağında idi. Mayor Semyonov hündürboylu, enlikürək, milliyyətcə ukraynalı olan ortayaşlı bir kişi idi. Mayor Semyonov Müşfiqi mehribanlıqla qarşıladı. O, gənc praporşikin keçdiyi həyat yolu ilə maraqlandı. Elə bu məqsədlə də soruşdu:

– Orta məktəbi nə vaxt qurtarmısan?

– Dörd il əvvəl.

– Dərslərini necə oxumusan?

– Yaxşı.

– Nə əcəb ali təhsil dalınca getmədin?

[1] Bəzi yerlərdə İƏM şərti olaraq dustaqxana kimi ifadə edilir.

– Qocalmamışıq ki. Hələ gec deyil. Oxuyuram, amma qiyabi.

Müşfiqin son cavabı onun ürəyincə oldu. Semyonov “oho” – deyərək, bununla praporşikin qiyabi təhsil almasını müsbət qarşıladı. Adətən, hərbçilərin realist, optimist olmalarının vacibliyindən danışan Semyonov onun bu cavabından xoşhal olmuşdu. Digər tərəfdən, Müşfiqin rus dilində səlist danışması da onun çox xoşuna gəlmişdi.

O, sonra daha müxtəlif suallarla Müşfiqin xarakterini öyrənməyə çalışdı. Müşfiq İnşaat Mühəndisləri İnstitutunda qiyabi təhsil alırdı. O, Ukraynanın Çernovçı şəhərində yerləşən tikinti batalyonunda hərbi xidmətdə olmuşdu. İnstituta da elə hərbi hissənin göndərişi ilə gəlmişdi. Müşfiq insanlara qarşı son dərəcə səmimi və mehriban idi. Onun xarakteri düzəldiyi iş yerinin özünəməxsus xüsusiyyətlərinə uyğun idimi? Məhz buna görə də onun İslah-Əmək Müəssisəsində hərbi xidmət aparması təhlükəli hadisələr yarada bilərdi.

Onlar təxminən iki saata yaxın söhbət etdilər. Heç kim ağlına gətirə bilməzdi ki, bu ikisaatlıq söhbət Müşviqin yeni taleyinin, yeni xarakterinin başlanğıcıdır və insanlara qarşı səmimi olan Müşfiq üç-dörd aydan sonra cinayətkar aləmdə nüfuzlu olan adamların əlində alətə çevriləcək...

Rota komandiri İslah-Əmək Müəssisəsinə zəng vurub nəzarətçilər vzvodunun komandiri, baş praporşik İslam Nəbiyevi yanına çağırdı. Nəbiyev 10–15 dəqiqədən sonra onun kabinetinin qapısını şəhadət barmağı ilə taqqıldadıb içəri boylandı:

– Komandir, olar?

– Olar, olar.

– Eşidirəm, yoldaş komandir. Xeyir olsun?

Semyonov Müşfiqi ona təqdim etdi:

– Tanış ol, baş idarədən göndəriblər. Təcrübəsi yoxdur. Kursu təzə bitirib. Gözün üstündə olsun.

Komandirlər qarşılıqlı razılıq əsasında Müşfiqin 2 ay təcrübə keçməsini qərarlaşdırdılar. Qaydaya görə, təcrübə keçən hərbi